ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1011.

**UOT 581.522.5**

# AZƏRBAYCANDA SOSİAL SAHİBKARLIĞIN MÜASİR VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ: YENİ ÇAĞIRIŞLAR VƏ İSTİQAMƏTLƏR

Aytən Təyyar qızı Hüseynli[1] , Əli Azər oğlu Aslanlı[2]

## XÜLASƏ

**Tədqiqatın məqsədi –** Məqalənin mövzusu Azərbaycanda sosial sahibkarlığın müasir vəziyyətinin təhlili, sahənin fəaliyyətinə mane olan səbəblər və gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsidir. Tədqiqatın əsas məqsədi regionların inkişafı, xüsusilə işğaldan azad edilmiş bölgələrin bərpası üzrə tərtib edilmiş layihələrdə sosial biznes mühitinin yaradılmasına və sosial-iqtisadi tərəqqiyə nail olmaqdır.

**Tədqiqatın metodologiyası –** Araşdırma zamanı sosial sahibkarlığın azərbaycanda inkişafı ilə bağlı tendensiyalar nəzərdən keçirilmişdir. Aparılmış sorğu əsasında SPSS təhlilin nəticələri qeyd edilmişdir. Yekun olaraq həyata keçirilə biləcək tədbirlər və atılacaq addımlar qiymətləndirilmişdir.

**Tədqiqatın tədbiqi əhəmiyyəti –** Regionlarda məşğulluğun təmin edilməsində, sosial biznes mühitin formalaşmasında istifadə oluna bilər.

**Tədqiqatın nəticələri –** Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Azərbaycanda sosial biznes sahəsinin inkişafı üçün kifayət qədər perspektiv imkanlar var.Atılacaq səmərəli addımlar nəticəsində daha da inkişaf edəcəkdir.

**Tədqiqatın elmi yeniliyi –** Sosial sahibkarlıq müxtəlif sahələrdən (iqtisadiyyat, sosiologiya, ekoloji elmlər, texnologiya və s.) bilik və metodları bir araya gətirir. Bu, kompleks problemlərin həlli üçün daha geniş perspektiv və vasitələr təmin edir.

**Açar sözlər:** sosial sahibkarlıq, biznes mühiti, bazar iqtisadiyyatı, sosial təsir, iqtisadi münasibət

## Giriş

Tarixi inkişaf prosesi göstərir ki, inkişaf edən ölkələrin iqtisadiyyatının dayanıqlığı səmərəli dövlət mexanizmlərinin həyata keçirilməsi ilə mümkün olur. Bu ölkələr XXI əsrin dövlət tənzimləmə islahatlarını və sosial proqramlarını əsas prioritet kimi qəbul edib, bazar iqtisadiyyatı mexanizmlərinə sosial istiqamətdə tövsiyyələr verir və bazarın mənfi nəticələrini aradan qaldırır. Məlumdur ki, dünyada iqtisadiyyatı hərəkətə gətirən, onu təşviq edən müxtəlif amillər vardır. Onlardan birini də sosial sahibkarlıq adlandırmaq olar. Çünki sosial biznes layihələrində də qazanc məqsədləri olur. Ancaq onu adi sahibkarlıq fəaliyyətindən fərqləndirən istiqamətlər mövcuddur. Belə ki, sosial sahibkarlığın əsas məqsədi hər şeydən əvvəl birincisi hər hansı bir sosial, ekoloji problemlərin həllinə biznes yanaşmasıdır. Burada sosial problemlərin həlli ilə yanaşı mənfəət məqsədi də olnalıdır ki, həyata keçirilən fəaliyyət davamlı olsun və eyni zamanda daha uzun müddətdə məqsədə çatmağa nail olunsun. Bu sahənin inkişafı Azərbaycan iqtisadiyyatı üçün də olduqca vacibdir. Çünki, son illərin statistik göstəricilərinə baxdıqda Bakı şəhərində həddən artıq insan sıxlığı müşahidə edilir. Buna səbəb kimi regionlarda iş yerlərinin azlığı,  insanların davamlı aylıq qazanc yerlərinin olmaması onları paytaxta gəlməyə vadar edir. Hərçənd ki, o insanlar arasında əl əməyi olan, xüsusi istedada malik insanlar var, lakin maliyyə və digər səbəblərdən potensialından səmərəli istifadə edə bilmir.  Kiçik və orta biznes subyektlərinin fəaliyyətlərinin dəstəklənməsi, xüsusilə regionlarda insanların özünəməşğulluq proqramları çərçivəsində bizneslərinin yaradılması və bazara çıxış imkanlarının təmin edilməsi ölkə iqtisadiyyatına da təkan verər.

[1]Əsas müəllif/Corresponding Author: i.ü.f.d.dos Aytən Təyyar qızı Hüseynli,
[2]Əli Azər oğlu Aslanlı, Kənd Təsərrüfatı Nazirliyi Maliyyə və təminat şöbəsi, aparıcı məsləhətçi, ali.aslanli06@gmail.com

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1011.

**Əsas hissə**

Sosial sahibkarlıq anlayışı, onun mahiyyəti və effektivliyi.

Sosial sahibkarlıq çox geniş bir sahəyə aid edilsə də, burada vurğulanmalı olan məqam ondan ibarətdir ki, sosial sahibkarlar həm qeyri-kommersiya sektorunun nümayəndələri olan fond və assosiasiya menecerlərindən, həm də qeyri-kommersiya sektorunun nümayəndələri olan gəlir əldə edən sahibkarlardan fərqlidirlər. Əslində, istər özəl sektor sahibkarları, istərsə də sosial sahibkarlar imkan və resursları bir araya gətirməkdə yaxşı olsalar da, bu iki sahibkar arasındakı ən mühüm fərq ondan ibarətdir ki, sosial sahibkar cəmiyyət və digər maraqlı tərəflər üçün dəyər yaradır. Özəl sektor sahibkarı isə sərvət və kapital yaradır. səhmdarlar üçün yığım formalaşdırır. Buna görə də sosial sahibkarlar özəl sektor sahibkarlarından mənfəət əldə etməyə verdikləri əhəmiyyətə görə fərqlənirlər. Özəl sektor sahibkarları qazanc əldə etməyi əsas məqsəd kimi qəbul edərkən, sosial sahibkarlar üçün ən mühüm məqsəd sosial dəyişiklik yaratmaqdır. Mənfəət əldə etmək bu məqsədə xidmət edən ikinci dərəcəli məqsəddir. Bu məqamda sosial sahibkarların klassik olaraq gəlirlərini yalnız ianə və üzvlük haqlarından əldə edən qeyri-kommersiya, xeyriyyə fondu və birliklərdən fərqi ortaya çıxır. Bu fərq sosial sahibkarların da ilkin məqsəd olmasa da, qazanılmış gəlirə, yəni mənfəətə ehtiyacı olduğunun göstəricisidir. Sosial sahibkarlıq təşkilatlarının davamlılığı yalnız bu fərqlə, yəni sosial sahibkarların müxtəlif resurslardan yaradıcı şəkildə faydalanması ilə mümkündür. Sosial sahibkarların sahibkarlıq xüsusiyyətlərinə işarə edən bu innovativ resurslardan istifadə qabiliyyəti sosial sahibkarlığın müəyyənləşdirilməsi mərhələsinə çatmazdan əvvəl sahibkarlıq subyektinin başa düşülməsini tələb edir (Helene və b., 2018).

Bir çox fərqli təriflərin sınandığı sahibkarlıqda önə çıxan anlayışlar fürsətləri görmək, risk götürmək və yenilikdir. Bu anlayışları sahibkarlıq prosesi çərçivəsində qiymətləndirmək lazım gələrsə, sahibkar mühitdə mövcud olan imkanları görə bilər, fürsətləri mənfəətə çevirmək üçün risk götürə, müəyyən məsələlərdə fədakarlıq edə bilər. Yeni məhsul və ya xidmətin dizaynı və ya onları yeni üsullarla, yeni hədəf auditoriyaya və ya yeni resurslarla təqdim etmək tətbiqlərdə olmalıdır. Sosial sahibkarlığın başlanğıc nöqtəsi sayıla bilən sahibkarlıqda bu elementlərlə yanaşı, sahibkarın “dəyər yaradıcısı” kimi müəyyən edilməsi subyektin sosial sahibkarlıq fenomeni ilə əlaqələndirilməsi baxımından mühüm vurğudur. Sahibkarı dəyər yaradan şəxs kimi görsək, sahibkarlıqda qazanc əldə etmək motivi ilə hərəkət etməyin əhəmiyyəti azalır və konsepsiyanın tətbiq sahəsi daha geniş olur. Çox fərqli şəkildə tərif edilə bilən və aydın ifadə olunması çox çətin olan sahibkarlıq anlayışının digər qeyri-müəyyən anlayış olan “sosial” fenomeni ilə birləşməsindən ibarət olan sosial sahibkarlığın müəyyən edilməsi də çox çətindir. Sosial sözünün burada anlayışa əlavə etdiyi məna odur ki, maraq sahəsi cəmiyyəti maraqlandıran sahə, hətta sosial problem olmalıdır. Sosial sözü həm də sosial sahibkarların sosial sahədə transformasiyaya səbəb olması, başqa sözlə desək, “sosial dəyişikliyin yaradıcıları” mənasını verir. Bundan əlavə, sosial sözü sosial sahibkarların iqtisadi dəyərdən daha çox sosial dəyər yaratmaq üçün işlədiyini göstərmək üçün vacibdir. Sosial sahibkarlar ümumiyyətlə sosial sektorda fəaliyyət göstərirlər. Onların özəl sektor sahibkarlığında olduğu kimi mənfəəti səhmdarlar arasında bölüşdürməməsi, yeni sosial məqsədli investisiyalar üçün istifadə etməsi sosiallıq fenomeninin göstəricisidir (Jantje və b., 2021) .

**Sosial sahibkarlığın Azərbaycanda müasir vəziyyəti**

Sosial sahibkarlıq anlayışını Azərbaycan iqtisadiyyatı üçün yeni bir istiqamət hesab etmək olar. Hazırda bu sahəyə maraq o qədər də çox deyil. Çünki, dövlət səviyyəsində qanunvericik aktlarında bu anlayışı izah edən, fəaliyyəti tənzimləyən müddəalara rast gəlinmir. Eyni zamanda cəmiyyət arasında da sahə ilə bağlı məlumatlılıq yox səviyyəsindədir. Birbaşa sosial sahibkarlıq məhfumunu əhatə etməsə də, oxşar sosial təşəbbüslər dövlət

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1011.

tərəfindən icra edilir. Bunlara nümunə olaraq “ABAD” layihəsini, özünəməşğulluq proqramlarını misal göstərmək olar.

Sahibkarlığın qurulması və təşkilatlanmasında yaşanan digər problemlər əsasən effektiv bir mexanizmin olmaması ilə əlaqəlidir. Sahibkarlıq sahəsindəki məqsəd və vəzifələrin ümumi şəkildə tənzimlənməsi mümkün olmadığı üçün, optimal problemlərin həllindən asılı vəziyyətə düşür. Bu problemlərin həllindən asılı olaraq, sahibkarlığın inkişafında optimist bir yanaşma mümkündür. Bu problemlərin həlli, Azərbaycan iqtisadiyyatında sahibkarlığın inkişafına ziyan verən ziddiyyətlərin aradan qaldırılması və qüvvətləndirilməsi tədbirlərinə əsaslanmalıdır.

Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra indiki dövrə qədər ölkədə sahibkarlığın sosial amilləri ilə bağlı bir sıra tədbirlər və dövlət proqramları həyata keçirib. Son dövrlərdə də bu tendensiya davam etməkdədir. Bütün bu proqramların hazırlanmasında məqsəd ölkədəki imkanlardan səmərəli istifadəni təmin etməyi, Azərbaycan Respublikasını iqtisadi cəhətdən güclü bir ölkəyə çevirməyi, dünya iqtisadiyyatına daxil etməyi, sosial sahədə problemlərin həllini və cəmiyyətin rifah halının yaxşılaşdırılmasını və yüksəldilməsini prioritet vəzifələr kimi qoyur (Bayramov, 2020).

Azərbaycan Respublikasının sosial və iqtisadi inkişafında əldə edilmiş böyük nailiyyətlər nəzərə alındığında, dövlətin idarə formasının yenilənərək yeni bir formata keçməsinin vacib olduğu qeyd olunur. Sahibkarlıq fəaliyyəti, bazar iqtisadiyyatında inkişafın əsas iqtisadi mexanizmi kimi hesab edilir. Bu səbəbdən, Azərbaycan Respublikası, dünyanın inkişaf etmiş ölkələrindən biri olmaq məqsədi ilə sahibkarlıq fəaliyyətinin təşkil olunması və inkişaf etdirilməsi üçün əsas prioritet vəzifələrindən birini müəyyən edir. Son təhlillər göstərir ki, Azərbaycan Respublikasında sürətli iqtisadi və sosial inkişafın təmin edilməsi üçün sahibkarlıq fəaliyyətinə və kiçik və orta sahibkarlığa xüsusi diqqət göstərilməlidir. Özəl sektor, kiçik və orta sahibkarlığa qoyulan investisiyalar bu sahədə əhəmiyyətli rol oynayır. İqtisadi-sosial tədbirlər və islahatlar Azərbaycandakı iş şəraitinin yaxşılaşdırılması üçün sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində atılan əhəmiyyətli addımlardan biridir. Son illərdə iş mühitini tənzimləyən tədbirlərin cəmiyyət üzərində müsbət nəticələr verdiyi görmək olar. Əsasən dövlət tərəfindən həyata keçirilən islahatlar, iş mühitində inkişafın təmin edilməsi istiqamətində qəbul edilən qərarlar intensivləşdirilir və beynəlxalq təcrübəyə əsasən normativ-hüquqi baza yaradılır. Bütün bunlarla yanaşı dövlət qurumları tərəfindən də müəyyən zəruri addımlar atılmaqdadır. Belə ki, 2023-cü il sentyabrın 17-də Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (bundan sonra-KOBİA) və Dövlət Məşğulluq Agentliyinin dəstəyi, KOBİA yanında İctimai Şuranın təşkilatçılığı və “Əlil Sahibkarlar Təşkilatı” İctimai Birliyinin tərəfdaşlığı ilə “Azərbaycanda sosial sahibkarlıq: mövcud vəziyyət və perspektivlər” mövzusunda Forum keçirilib. Tədbirdə aidiyyəti dövlət qurumlarının, biznes assosiasiyaların və ictimai birliklərin nümayəndələri, sosial sahibkarlıqla məşğul olan və ya biznes fəaliyyətinə maraq göstərən Vətən müharibəsi qaziləri və əlilliyi olan şəxslər iştirak ediblər. Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi tərəfindən həssas əhali qruplarının, əlilliyi olan şəxslərin əmək bazarına çıxışı və məşğulluq, kiçik biznesə yiyələnmək imkanlarının artırılması üçün aparılan işlər diqqətə çatdırılıb. ( https://dost.gov.az/news/311)

Sözügedən Forumun müzakirə predmetindən məlum olur ki,dövlət qurumları tərəfindən də atılan addımların əsas məqsədi əhalinin həssas qruplarının məşğulluq məsələlərinin təmin edilməsidir.

Həmçinin, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, mikro, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1011.

məqsədilə "ABAD" - Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxs Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılıb. Özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyət göstərən "ABAD" mərkəzləri tərəfindən dekorativ-tətbiqi xalq sənətkarlığı və qida məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək layihələri həyata keçirilir. "ABAD" mərkəzləri ailə təsərrüfatlarına biznes-planlaşdırma, marketinq, təlimlər, brendinq və dizayn, maliyyə-mühasibat, hüquqi yardım və ən əsası, satışın təşkili ilə və avadanlıq ilə təmin edir. İstehsal olunmuş məhsulların "bir pəncərə" prinsipi üzrə sertifikatlaşdırılması, logistika işinin və satışların təşkili "ABAD" tərəfindən həyata keçirilir. ABAD publik hüquqi şəxsə üzv olan vətəndaşlara – ABADçılara qurum tərəfindən biznes-konsaltinq xidmətləri göstərilir. Bu xidmətlər ABADçının imkanlarının təhlili, bazarda onun istehsal edəcəyi məhsula olan tələbat, yeni satış bazarlarının müəyyənləşdirilməsi, ABADçının iştirakı ilə müxtəlif biznes-planların tərtibindən ibarətdir. ABAD-a qoşulmuş ailə biznesi aldığı bu dəstək sahəsində öz kiçik təsərrüfatını müasir standartlara, biznesin tələblərinə əsasən qurur və gələcək dayanıqlı inkişafını təmin etmiş olur. ABADçıya göstəriləcək maliyyə xidmətləri əsasən, onun mühasibatlıq sisteminin qurulmasından ibarətdir. Əsas məqsədi ölkədə ailə bizneslərinin təşəkkül tapması olan ABAD bu sahədə əhalinin maliyyə mədəniyyətinin yüksəldilməsini də mühüm vəzifə hesab edir. ( https://abad.gov.az/about)

Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030" sosial-iqtisadi inkişafın Milli Prioritetləri təsdiq olunub. Sözügedən sənəddə beş prioritet sahə müəyyən edilib. Xüsusilə, növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafının beş milli prioritetini həyata keçirmək lazımdır:

- davamlı inkişaf edən rəqabət iqtisadiyyatı;
- dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- rəqabət qabiliyyətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- işğaldan azad edilmiş ərazilərə böyük qayıdış;
- təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Milli Prioritetlərin hazırlanması heç də təsadüfi deyildi. 2020-ci ildə Azərbaycanın işğal olunmuş əraziləri azad olunandan sonra həll edilməli olan başlıca vəzifələrdən biri də həmin ərazilərin bərpası və məcburi köçkünlərin öz evlərinə qaytarılmasıdır. Bu ərazilərdə məcburi köçkünlərin geri qaytarılması üçün əlverişli mühit, o cümlədən sabit və rahat şərait yaradılmalıdır. Bu məqsədlə Azərbaycanın suveren nəzarətində olan torpaqların iqtisadi potensialına yenidən baxılması zəruri hesab olunurdu. Əhalinin məşğulluğuna, sosial rifanı yönümlü sosial sahibkarlıq layihələrinin keçirilməsi daha sıx məskunlaşma olan bölgələrdə effektiv hesab olunur. Məlum məsələdir ki, hazırda işğaldan azad olunmuş ərazilər hazırda sosial biznes mühitinin yaradılması üçün o qədər də əlverişli hesab olunmur. Çünki mina təmizləmə işlərinin aparılması, bərpa, quruculuq tədbirlərinin görülməsi, məcburi köçkünlərin öz evlərinə qaytarılması müəyyən zaman tələb edir. Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi milli prioritet çərçivəsində cari dövrdə ekoloji sosial sahibkarlıq tədbirlərinin həyata keçirilməsi Qarabağ bölgəsində daha effektiv hesab olunur (Həmidov, 2022) .

Azərbaycanda sosial sahibkarlığın müasir vəziyyəti, inkişafı istiqamətləri və bu sahəyə strateji yanaşma məsələləri ilə bağlı tədqiqat sorğusu keçirilmişdir. Sorğunun 100 nəfər respondentlə keçirilməsi nəzərdə tutulsa da ümumilikdə 112 nəfər iştirak etmişdir. Sorğu iştirakçılarının kontingenti əsasən universitet tələbələri, müəllim heyəti, kənd təsərrüfatı sahəsində çalışan dövlət işçiləri olmuşdur.

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1011.

**Cədvəl 1.**

**Yaş kateqoriyasının təyin edilməsi barədə ünvanlanmış sualın nəticələri.**

| Yaşınız | | | | | |
|---|---|---|---|---|---|
| | | Frequency | Percent | Valid Percent | Cumulative Percent |
| Valid | 18-25 | 79 | 37,4 | 71,2 | 71,2 |
| | 26-35 | 23 | 10,9 | 20,7 | 91,9 |
| | 36-50 | 6 | 2,8 | 5,4 | 97,3 |
| | 50 yaş və üzəri | 3 | 1,4 | 2,7 | 100,0 |
| | Total | 111 | 52,6 | 100,0 | |

**Mənbə:** Müəllif tərəfindən aparılan araşdırma nəticəsində hazırlanmışdır.

**Cədvəl 2.**

**Təhsil göstəricilərinin təyin edilməsi barədə ünvanlanmış sualın nəticələri.**

| Təhsiliniz | | | | | |
|---|---|---|---|---|---|
| | | Frequency | Percent | Valid Percent | Cumulative Percent |
| Valid | Tam orta təhsil | 5 | 2,4 | 4,5 | 4,5 |
| | Bakalavr | 66 | 31,3 | 60,0 | 64,5 |
| | Magistratura | 37 | 17,5 | 33,6 | 98,2 |
| | Doktorantura | 2 | ,9 | 1,8 | 100,0 |
| | Total | 110 | 52,1 | 100,0 | |

**Mənbə:** Müəllif tərəfindən aparılan araşdırma nəticəsində hazırlanmışdır.

Cədvəllərdən də göründüyü kimi, gənclər sorğuda daha fəal iştirak etmişlər. İştirakçıların böyük qismi ali təhsili olan kateqoriyaya aiddir. Bu da daha dəqiq tədqiqat aparmağa, onların sahəyə olan marağını, təkliflərini, tövsiyyələrini müəyyən etməyə imkan verir.

**Şəkil 1.**

**Sosial sahibkarlığın cəmiyyət üçün faydaları barədə sualın nəticələri**



ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1011.

**Mənbə:** Müəllif tərəfindən aparılan araşdırma nəticəsində hazırlanmışdır.

"Sosial sahibkarlığın cəmiyyət üçün hansı faydaları var?" sualı cavab olaraq respondentlərin 41.4 %-i hesab edir ki, ictimai həmrəyliyin gücləndirilməsi ilə nail olmaq olar (Şəkil 1). Onların fikrinə və öz mülahizələrimə görə sosial biznes mühitinin yaradılmasında dövlət-cəmiyyət tərəfdaşlığının qurulması vacib faktordur. Yalnız bundan sonra qarşıya qoyulan məqsədlərə çatmaq mümkün hesab edilir. Bunun üçün ilk öncə əhalinin sosial yönümlü tələbatları müəyyənləşdirilməli və nəticəsinə uyğun addımlar atılması zəruridir.

**Şəkil 2.**

**Sosial sahibkarlığın inkişafı ilə bağlı görüləcək tədbirlər barədə sualın nəticələri**




**Mənbə:** Müəllif tərəfindən aparılan araşdırma nəticəsində hazırlanmışdır.

"Azərbaycanda sosial sahibkarlığın inkişafı üçün ilk öncə nə lazımdır?" sualına isə sorğu iştirakçılarının 49.1 %-i əhali arasında maarifləndirmə tədbirlərinin həyata keçirilməsini məqsədəuyğun hesab edir (Şəkil: 2). Ancaq respondentlərin fikri ilə yanaşı öz mülahizəmə görə ilk öncə hüquqi bazanın yaradılması daha vacibdir. Çünki həyata keçirilən fəaliyyətin sosial sahibkarlıq layihəsi kimi səviyyələndirilməsi üçün bununla bağlı qanunvericilik aktı qəbul olunmalıdır. Daha sonra əhalinin məlumatlandırılmasını və digər tədbirləri həyata keçirmək səmərəli hesab oluna bilər.

**Şəkil 3.**

**Sosial sahibkarlığın üzləşdiyi problemlərlə bağlı sualın nəticələri**



ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1011.

**Mənbə:** Müəllif tərəfindən aparılan araşdırma nəticəsində hazırlanmışdır.

"Ölkəmizdə sosial sahibkarların üzləşdiyi ən böyük problemlər hansılardır?" sualına isə 2 istiqamət üzrə maliyyə vəsaitinin idarə edilə bilməməsi (47.3 %) və davamlı gəlir modelinin yaradılmaması (45.5 %) qənaətinə gəliblər. Ancaq hesab edirəm ki, daha çox verilən sırasında ən böyük problem hüquqi tənzimləmənin olmamasıdır. Çünki, konkret tənzimləmə mexanizmi olmadığından bu və ya digər fəaliyyətin sosial sahibkarlıq kimi adlandırılması çətinlik yaradır. Bu səbəbdən bir çox sahibkarlar həyata keçirdikləri işin sosial sahibkarlıq fəaliyyəti olmasının fərqində deyillər.

Aparılan təhlil və araşdırma nəticəsində belə qənaətə gəlmək olar ki, sahibkarlıqla məşğul olanlar yalnız öz gəlirlərini qorumaqla qalmır, həm də cəmiyyətə sosial və iqtisadi fayda təmin etməkdə əsas rolu oynayırlar. Onlar milli iqtisadiyyatın formalaşmasına kömək edir, iş yaradır və işsizliklə mübarizədə fəal iştirak edir. Dünya təcrübəsindən görünür ki, sahibkarlığın inkişafı üçün əsasən makro-iqtisadi səviyyədə sabitlik təmin edilməlidir və sahibkarlar üçün əlverişli şərait yaradılmalıdır. Bu, həm dövlət, həm də fərdi səviyyədə problemlərin həllindən asılıdır. Araşdırmanın nəticələri sahibkarlığın inkişafında əsas məsələləri özündə cəmləyir:

- Sahibkarlığın sosial və iqtisadi sferada effektivliyin artırılması
- Azərbaycandakı sahibkarlığın əhəmiyyəti və beynəlxalq inteqrasiyada rolunun qeyd olunması
- Ölkədə iqtisadi potensial və iş gücünün kifayət qədər olması
- Sahibkarlığın ölkədə ümumi daxili məhsulda, işsizliklə mübarizədə və cəmiyyətin rifahı üçün önəmli rolu
- Sahibkarlığın effektivliyi və effektivlik meyarlarının ölçülməsi
- İnovasiya fəaliyyətinin dəstəklənməsi və yeni iş yerlərinin yaradılması
- Sosial müdafiənin gücləndirilməsi üçün kiçik və orta sahibkarlığın təşviqi

Sosial sahibkarlığın inkişafında dünya təcrübəsindən istifadə etmək və təkmilləşmə mexanizmlərini tətbiq etmək vacibdir, çünki sahibkarlığın inkişafı tarixi bir prosesdir. Müstəqillikdən sonra Azərbaycan sahibkarlığının inkişafına dövlət siyasəti və dəstəkləri də təsir etmişdir. Həmin dəstəklərin ölkədə sosial və iqtisadi sahədə problemlərin həllinə yönəldilmiş olması əhəmiyyətli mərhələni təşkil edir.

**Nəticə və təkliflər**

Azərbaycanda sosial və iqtisadi problemlərin həllinə sahibkarlığın dəstəyi, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafı ön planda durur. Bu sahədə dünya təcrübəsindən istifadə etmək imkanları genişdir. Kiçik və orta sahibkarlığın rolunun iqtisadi artım və sabitliyin təminində böyük olduğu qeyd olunur. Sosial sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən dəstəyi, sosial, iqtisadi proqramlara daxil edilməsi, qanun layihəsinin qəbul edilməsi sahənin inkişafını sürətləndirə bilər. Sosial biznes mühtinin yaradılması və\ davamlı inkişaf istiqamətlərinin müəyyən edilməsi üçün bir sıra addımların atılması zəruri hesab olunur:

- Təlim və Dəstək Proqramları: Sosial sahibkarların ehtiyac duyduğu təlim və dəstək proqramları yaradılmalıdır. Bu proqramlar biznes planının hazırlanması, maliyyə menecmenti, marketinq və davamlılıq kimi mövzularda bilik və bacarıqlar təmin edə bilər.
- Maliyyə resurslarına çıxış: Sosial sahibkarların maliyyə resurslarına çıxışı asanlaşdırılmalıdır. Bura dövlət qrantları, sosial investisiya fondları, qrant proqramları kimi müxtəlif mənbələr daxil ola bilər.

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1011.

- Əməkdaşlığın genişləndirilməsi: Sosial sahibkarlar arasında əməkdaşlıq və şəbəkələşmə təşviq edilməlidir. Bu, bilik və təcrübə mübadiləsini artıra, birgə layihələrin işlənib hazırlanmasına imkan yarada və onların sektora təsirini artıra bilər.
- İctimai məlumatlılığın artırılması: Cəmiyyətə sosial sahibkarlığın daha yaxşı izah edilməsi və dəstəklənməsi vacibdir. Buna sosial sahibkarların əməyinin təşviqi, cəmiyyətin sosial problemlərə həssaslığının artırılması, sosial sahibkarlıq mədəniyyətinin yayılması ilə nail olmaq olar.
- Tənzimləmə prosedurlarının dəstəklənməsi: Sosial sahibkarlıq üçün uyğun tənzimləmə mühitinin yaradılması vacibdir. Ən əsası Sosial sahibkarlıq haqqında qanun layihəsi hazırlanmalı və bir sıra təşviqedici güzəştlər nəzərdə tutulmalıdır. Bu, həm də sosial sahibkarların öz fəaliyyətlərini həyata keçirərkən qarşılaşdıqları maneələrin azaldılması və innovativ həllərin inkişafının stimullaşdırılması deməkdir.

Bu tövsiyələr sosial sahibkarlığın daha effektiv inkişafına kömək edə və cəmiyyətin ümumi rifahına daha çox töhfə verə bilər.

## ƏDƏBİYYAT

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"
2. Aslanov Z., "Sosial biznesin əsas problemləri" Bakı, 2020
3. Bayramov A., "Azərbaycanda sosial sahibkarlıq: mövcud vəziyyət və inkişaf üçün islahatların əsas istiqamətləri" Bakı, 2020
4. Həmidov H., Məmmədova F., "İşğaldan azad edilmiş ərazilərdə əlverişli iqtisadi şəraitin yaradılması" Bakı, 2022)
5. Helene Cherriera və b. "Social entrepreneurship: Creating value in the context of institutional complexity", Journal of Business Research 86 (2018)
6. Jantje Halberstadt və b. "Social entrepreneurship orientation: Drivers of success for start-ups and established industrial firms", Industrial Marketing Management 94 (2021)
7. Wenjie Wang "Toward Economic Growth and Value Creation Through Social Entrepreneurship: Modelling the Mediating Role of Innovation", Frontiers in Psychology (2022)

## İNTERNET RESURSLARI:

1. https://dost.gov.az/news/311
2. https://abad.gov.az/about
3. https://www.undp.org/az
4. /azerbaijan/press-releases/what-do-social-entrepreneurs-say-about-ecosystem-azerbaijan
5. https://azerbaijan.un.org/az/173462-avropa-i%CC%87ttifaq%C4%B1-v%C9%99-bmti%CC%87p-az%C9%99rbaycanda-sosial-sahibkarl%C4%B1q-%C3%BCzr%C9%99-siyas%C9%99tl%C9%99rin-m%C3%BCzakir%C9%99sin%C9%99

ADAU-nun ELMİ ƏSƏRLƏRİ
ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1011.

## ASSESSMENT OF THE MODERN SITUATION OF SOCIAL ENTREPRENEURSHIP IN AZERBAIJAN: NEW CHALLENGES AND DIRECTIONS

### Summary

**The purpose of the research** - the topic of the article is the analysis of the current state of social entrepreneurship in Azerbaijan, the reasons that hinder the activity of the field and the determination of future development directions. The main goal of the research is to create a social business environment and achieve socio-economic progress in the projects designed for the development of regions, especially the restoration of regions freed from occupation.

**Methodology of the research** - During the research, trends related to the development of social entrepreneurship in Azerbaijan were considered. The results of the SPSS analysis were recorded based on the conducted survey. Finally, measures that can be implemented and steps to be taken are evaluated.

**The applied significance of the research** – it can be used in the provision of employment in the regions and in the formation of a social business environment.

**Results of the research -** As a result of the conducted research, it became clear that there are enough perspective opportunities for the development of the social business field in Azerbaijan.

**Scientific innovation of research** - Social entrepreneurship brings together knowledge and methods from different fields (economics, sociology, environmental sciences, technology, etc.). This provides a broader perspective and tools for solving complex problems.

**Keywords:** social entrepreneurship, business environment, market economy, social impact, economic attitude

## ОЦЕНКА СОВРЕМЕННОЙ СИТУАЦИИ СОЦИАЛЬНОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНЕ: НОВЫЕ ВЫЗОВЫ И НАПРАВЛЕНИЯ

### Резюме

**Цель исследования -** тема статьи - анализ современного состояния социального предпринимательства в Азербайджане, причин, препятствующих деятельности сферы и определение будущих направлений развития. Основная цель исследования – создание социальной бизнес-среды и достижение социально-экономического прогресса в проектах, направленных на развитие регионов, особенно восстановление регионов, освобожденных от оккупации.

**Методология исследования -** В ходе исследования были рассмотрены тенденции, связанные с развитием социального предпринимательства в Азербайджане. Результаты SPSS-анализа были зафиксированы на основе проведенного опроса. Наконец, оцениваются меры, которые могут быть реализованы, и шаги, которые необходимо предпринять.

**Прикладная значимость исследования** – оно может быть использовано при обеспечении занятости в регионах и формировании социальной бизнес-среды.

**Результаты исследования -** В результате проведенных исследований было установлено, что в Азербайджане имеется достаточно перспективных возможностей для развития сферы социального бизнеса.

**Научная инновация исследований.** Социальное предпринимательство объединяет знания и методы из разных областей (экономики, социологии, наук об окружающей среде, технологий и т. д.). Это обеспечивает более широкую перспективу и инструменты для решения сложных проблем.

**Ключевые слова:** социальное предпринимательство, деловая среда, рыночная экономика, социальное воздействие, экономическое отношение.

*Məqalə daxil olmuşdur: 06.06.2024*
*Təkrar işləməyə göndərilmişdir: 08.06.2024*
*Çapa qəbul edilmişdir: 15.06.2024*

*Дата поступления статьи в редакцию: 06.06.2024*
*Отправлено на повторную обработку: 08.06.2024*
*Принято к печати: 15.06.2024*

*The date of the admission of the article to the editorial office: 06.06.2024*
*Send for reprocessing: 08.06.2024*
*Accepted for publication: 15.06.2024*